

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 225 (21.886)

*28 noyabr 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda keçirilən iməcilikdə yeni meyvə bağları salınıb



Muxtar respublikada payız iməcilikləri dövründə əkinçilik üçün əlverişli olmayan torpaq sahələrində yeni meyvə bağlarının salınması diqqət mərkəzində saxlanılır.

Noyabrın 25-də Naxçıvanda növbəti iməcilik keçirilmiş, yerli meyvə sortlarından ibarət meyvə bağları salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Kəngərli Rayon İcra Hakimiyyətinin kollektivləri Naxçıvan-Sədərək avtomobil yolunun kənarında keçirilən iməcilikdə iştirak etmişlər. İməcilik iştirakçıları 4 hektar ərazidə 2100 ədəd badam və digər meyvə tingləri əkmiş, müvafiq aqrotexniki tədbirlər və suvarma işləri görmüşlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, yeni tinglər əkmişdir.

Həmin gün muxtar respublika ərazisində keçirilən iməciliklərdə 5560 meyvə tingi, 7660 üzüm və 4300 gül kolu əkilmiş, ümumilikdə 10 hektardan artıq sahədə yeni meyvə və 4 hektar sahədə üzüm bağları salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Qarabağlar Türbə Kompleksində bərpa işləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il iyulun 4-də Sərəncam imzalamış, bununla bağlı tədqiqat qrupu yaradılmışdır. Sərəncama uyğun olaraq ötən ildən etibarən Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin görkəmli nümunələrindən olan Qarabağlar Türbə Kompleksində bərpa işlərinə başlanmışdır.

Noyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qarabağlar Türbə Kompleksində olmuş, bərpa işlərinin gedişi və bundan əvvəl verdiyi tapşırıqların icrası ilə maraqlanmışdır.



Məlumat verilmişdir ki, Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi olan dünya əhəmiyyətli abidədə bərpa işləri elmi əsaslarla aparılır. Kompleks türbə, xanəgah və qoşa minarəli baştağdan ibarətdir. Bərpa işləri aparılarkən abidənin tarixi görkəmi olduğu kimi qorunub saxlanılır. Bu günədək türbənin kürsülük hissəsi və kaşılı örtükləri, eləcə də türbənin səthindəki həndəsi ornamentləri xatırladan kitabələr, qoşa minarəli baştağı və xanəgahı bərpa olunmuşdur.

Türbənin ətrafında da abadlıq işlərinin görülməsi və yaşıllıqların salınması nəzərdə tutulur. Hazırda ərazidə torpaq işləri görülmüş, kompleksə gedən yol genişləndirilmişdir.

Ali Məclisin Sədri Qarabağlar türbəsindəki bərpa işlərinin gedişi barədə müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şahtaxtinskilər Muzeyi yenidən qurulub





Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamı ilə Kəngərli rayonunun Şahtaxtı kəndində yaradılan Şahtaxtinskilər Muzeyi də Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında mühüm xidmətləri olan Şahtaxtinskilər nəslinin görkəmli nümayəndələrinin həyat və fəaliyyətinin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

Noyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahtaxtinskilər Muzeyində olmuş, aparılan yenidənqurma işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, muzeyin ekspozisiya zalı tamamilə yenidən qurulmuş, fond otağı yaradılmış, eksponatların ayrı-ayrı guşələr üzrə nümayişi təmin edilmişdir. Muzeyin guşələrində tanınmış dövlət xadimi və diplomat, beynəlxalq Moskva və Qars müqavilələrinin bağlanmasında müstəsna xidmətlər göstərmiş Behbud ağa Şahtaxtinskinin, görkəmli publisist və ictimai xadim Məhəmməd ağa Şahtaxtlının, Azərbaycan Xalq Cümhuriyyətinin maarif naziri, Azərbaycan parlamentinin ilk üzvlərindən Həmid ağa Şahtaxtinskinin, görkəmli rəssam Elmira Şahtaxtinskinin həyat və fəaliyyətini özündə əks etdirən məlumatlar, arxiv materialları, bu nəslin görkəmli nümayəndələrinin kitabları, eləcə də rəsm əsərləri toplanmışdır.

Muzeydə diplomat Aleksis Şahtaxtinskiyə həsr olunmuş qəzet materialları və fotoşəkillər, Şahtaxtı kəndinin görkəmli nümayəndələrindən olan İsa Sultan Şahtaxtinski, Toğrul Şahtaxtinski, Məhəmmədəmin Şahtaxtinski, Əbülfət ağa Şahtaxtinski, Adilə Şahtaxtinskaya, Zəhra Şahtaxtinskaya, Baxşəli ağa Şahtaxtinski, Həbibullah Şahtaxtinski və Ətaulla Şahtaxtinski haqqında məlumatlar da yerləşdirilmişdir. Həmçinin ekspozisiyada Şahtaxtinskilərə həsr olunmuş televiziya filmləri, Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi ilə bağlı hazırlanmış poçt markaları və zərflər nümayiş olunur.

Ali Məclisin Sədri Şahtaxtinskilər nəslinin Azərbaycan tarixində mühüm xidmətləri olduğunu diqqətə çatdırmış, Şahtaxtinskilər Muzeyinin yeni eksponatlarla zənginləşdirilməsi və "Muzey günləri" qrafikinə daxil edilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

Müasirləşən kəndlərimiz

## Nürgüt kəndi yeni inkişaf dövrünü yaşayır



**Ordubad rayonunun ən ucqar zirvəsində, uca dağların, sıldırım qayaların qoynunda yerləşən Nürgüt füsunkar gözəllikləri ilə rəssam fırçasına ilham verən yurd yerlərimizdəndir. Zirvələrin tacı olan bu kənddən təbiət öz səxavətini əsirgəməyib. Zümrüd rəngli Göy-gölü, əzəmətli, vüqarlı dağları, min bir dərdin dərmanı olan yeraltı mineral bulaqları, həzin zümzümə ilə insanın ruhunu oxşayan Əyriçay və Saqqarsu çayları sanki memar əli ilə yaradılan bu yurd yerinin ecazkar təbiətinə heyrətamiz gözəllik qatır.**

Tədqiqatçıların fikrincə, "Nürgüt" toponimi "düşərgə", "dayanacaq" sözlərindən ibarətdir. Ancaq digər fikrə görə, bu ad nouqut sözünün təhrif olunmuş variantıdır. Toponim "yeni kənd", yaxud "təzə kənd" mənasındadır. Qarşılaşdığımız digər mənbədə isə Gəmiqayaya yaxın ərazidə yerləşən bu yaşayış məntəqəsi Nuhun tufanı hadisəsi ilə bağlılığı ehtimalını qüvvətləndirir. Bu baxımdan yanaşdıqda Nuh Peyğəmbərin gəmisinin son dayanacaqlarından biri kimi Gəmiqayanın sol ətəyindəki "Nürgüt" adının müəyyən mənada Nuh hadisəsi ilə səsləşdiyi ehtimal olunur...

...Yolumuz uzaq olduğundan kəndə sübh tezdən yola düşmüşük. Payızın son günləri olmasına baxmayaraq, dağda, daşda qışın soyuq nəfəsini duyuruq. Zəngəzur silsiləsinin yamacında, Gəmiqayanın sağ və sol qolunda yerləşən bu kəndə qış aran kəndlərinə nisbətən daha tez qədəm qoyur. Odur ki, kəndətrafı sahələrdə bir qələbəlik müşahidə olunur. Zəhmətkeş insanlar qış üçün tədarük görür, bostan-tərəvəz sahələrindən, meyvə bağlarından payız məhsulları yığılır.

Həmsöhbət olduğumuz kənd sakini Məhəmməd Məmmədov deyir ki, kəndin münbit torpaqları sakinlərin məşğuliyyəti və gəlir mənbəyi olan bağçılıq, heyvandarlıq, arıçılıq və əkinçiliyin, dağlıq ərazilər üçün spesifik olan sahələrin inkişafına rəvac verir. Dağlıq, əsasən də, yaylaq ərazilərin üstünlük təşkil etdiyi bu torpaqlardan kənd camaatı həm də biçənək və otlaq sahəsi kimi istifadə edir.

Müsahibimiz bir qədər əvvəldən də söhbət açır. Deyir ki, bir vaxtlar yolların tamamilə sıradan çıxması, xüsusən qarlı-yağışlı havalarda kənd sakinlərinin ən böyük problemlərindən idi. Üstəlik, iki saatdan bir yanan işıq, qışın oğlan çağında bir stəkan su qaynatmaq üçün ağaclardan qalanan ocaq insanları lap bezdirmişdi. Əvvəllər, desəydilər ki, nə vaxtsa bu kəndə qaz xətti çəkiləcək, hər evə telefon xətti quraşdırılacaq, insanlar internetdən istifadə etmək imkanı əldə edəcək, ömründə inanmazdım. Bir zamanlar sıxıntılar məngənəsində boğulan kənd adamları öz yurd yerlərindən didərgin düşmüşdülər. Hər kəs şəhərə axın edib özünə gün-güzəran qurmağa çalışırdı. Bu gün kənddə camaatın rahatlığı üçün hər cür şərait yaradılıb, insanlar hərtərəfli qayğı ilə əhatə olunub, yeni sosial obyektlər tikilərək istifadəyə verilib.

Sovet dönəmində köçürülmə təhlükəsiylə üzləşdiyi halda, bu gün Nürgüt öz inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Kənddə məktəb binasının yenidən qurulması, xidmət və kənd mərkəzləri, səhiyyə ocağı, kitabxana üçün binaların tikilərək istifadəyə verilməsi sakinlərin öz yurd yerinə daha sıx tellərlə bağlanmasına şərait yaradıb.

Nürgüt kənd tam orta məktəbinin direktoru Hikmət Quliyev təhsil ocağı haqqında danışaraq deyir ki, bir vaxtlar ibtidai məktəb kimi fəaliyyət göstərən təhsil ocağı 2002-ci ildə 11 illik məktəbə çevrilib və yeni bina ilə təmin edilib. 2013-cü ildə isə bina əsaslı şəkildə təmir olunaraq noyabr ayının 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə şagird və müəllim kollektivinin istifadəsinə verilib.

Öyrəndik ki, məktəb binası 110 şagird yerlikdir. Burada 12 sinif otağı, kimya-biologiya kabinəsi, hərbi kabinə, 2 elektron lövhəli sinif, kompüter otağı, müəllimlər otağı, kitabxana və açıq idman qurğuları vardır. Təhsilə göstərilən qayğının nəticəsidir ki, məktəbin uğurları ildən-ilə artır. Ötən tədris ilində məktəbi bitirən 2 məzunun ikisi də ali məktəb tələbəsi adını qazanıb. Kollektiv bu il də yüksək nəticə əldə edəcəyinə inanır və bunun səbəbini təhsilin səviyyəsini yüksəltmək üçün muxtar respublikada həyata keçirilən tədbirlərdə görür.

Kənd əhalisinə tibb xidməti göstərən feldşer-mama məntəqəsi də məktəb binasında yerləşir. Həmin məntəqə üçün burada 2 otaq ayrılıb.

Nürgüt kəndində aparılan quruculuq işləri zamanı əhalinin gündəlik məişət tələbatının ödənilməsi də diqqət mərkəzində saxlanılıb və yeni xidmət mərkəzi tikilib. Qeyd edək ki, xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri və ərzaq mağazası fəaliyyət göstərir. Mağazada muxtar respublikamızda istehsal olunan keyfiyyətli ərzaq və sənaye məhsullarının satışına daha çox üstünlük verilir. Kənd sakinləri burada həyata keçirilən kompleks quruculuq və abadlıq işlərini ölkəmizdə, eləcə də muxtar respublikamızda insan amilinə verilən qiymətin ifadəsi kimi dəyərləndirirlər.

Kənddə yaradılan belə şərait insanların qurub-yaratmaq əzmini daha da artırır. Nürgüt də bu gün hər bir kənd sakini göstərilən dövlət qayğısını öz həyatında hiss edir.

Kənd ağsaqqalı İsmayıl Haqverdiyev də Nürgütdə yaradılan şəraitdən razılıqla danışır. Deyir ki, evində fasiləsiz mavi yanacaq şölələnən, işığı daim yanan, telefon, internet xidmətindən istifadə edən, rahat yoldan və səhiyyə xidmətindən yararlanan, uşağı abad məktəbdə təhsil alan hər bir sakin doğma yurd-yuvasının müasir yaşayış məntəqəsinə çevrilməsindən qürur duyur.

Kəlbəcər rayonundan kənd məktəbində könüllü işləməyə gələn Elşad İsmayılov deyir ki, digər bölgələrdən buraya üz tutan gənc müəllimlərin yaşayıb fəaliyyət göstərmələri üçün də Nürgütdə hərtərəfli şərait yaradılıb. Bu gün burada ölkəmizin digər regionlarından gələn neçə-neçə gənc müəllim çalışır. Artıq 5 ildir ki, mən də Nürgüt kənd tam orta məktəbində pedaqoji fəaliyyətlə məşğul oluram. Bu diyarın torpağı, suyu, təbiəti mənə ana yurdum Kəlbəcəri xatırladır. Buz kimi bulaqları, hayharaylı çayları, uca dağları, ən əsası insana candan yanan mehriban, səmimi, qonaqpərvər insanları... Burada yaşamaq, öyrətmək, öyrənmək, gəzmək, eyni zamanda bu yurdun insanlarını yaxından tanımaq mənə o qədər xoşdur ki... Burada yaşadığım müddətdə görürəm ki, Naxçıvan hər keçən gün daha da inamla inkişaf edir, yenilənir, çiçəklənir. Hər şeydən əvvəl, buradakı sakitlik, əmin-amanlıq insanların firavan həyat yaşamalarına vəsilə olur. Elə bu səbəbdən burada yaşamaqdan məmnunluq duyuram.

***Nürgütdə olarkən bir daha gördük ki, Naxçıvanda bu gün ən ucqar dağ kəndləri belə, müasirliyə qovuşub.***

Gülcamal TAHİROVA

---

**Naxçıvan Muxtar Respublikasında əhalinin etibarlı ərzaq təminatında mühüm yerlərdən birini kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlər, aparılan islahatlar bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafı üçün geniş imkanlar açmışdır.**

## "Orqanik Məhsul Fermer Təsərrüfatı"nda keyfiyyətli kənd təsərrüfatı məhsulları yetişdirilir



Əldə olunmuş nailiyyətlərdə muxtar respublikada indiyədək icrası uğurla başa çatdırılmış və hazırda davam etdirilən dövlət proqramlarının böyük əhəmiyyəti vardır. Bundan əlavə, aparılan meliorasiya və irriqasiya tədbirlərinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumlarının artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının sürətli inkişafına əlverişli şərait yaratmışdır. Toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, yanacaqsürtkü materiallarına görə yardımların, gübrələrə, satılan texnikaların dəyərinə güzəştlərin tətbiq edilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar üçün əsaslı stimuldur.

Təbii ki, sahibkarlığın inkişafı iqtisadiyyatın müxtəlif sahələrində böyük rol oynadığından, kənd təsərrüfatı məhsullarının istehsalında da sahibkar əməyi önəmli yerə malikdir. Xüsusilə son illərdə muxtar respublikamızın müxtəlif bölgələrində yaradılmış fermer təsərrüfatları nümunəvi model kimi daha çox diqqəti çəkir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən bu məqsədlə müxtəlif pilot layihələrin həyata keçirilməsi belə fermer təsərrüfatlarının yaradılması və fəaliyyətinə geniş imkanlar açır. 2016-cı ilin dekabr ayında təsis edilmiş "Orqanik Məhsul Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyəti də bu istiqamətdə ilk addımlarını atan təsərrüfatlardandır.

Bu fermer təsərrüfatı Babək rayonunun Hacıvar kəndi ərazisində yaradılıb. Cəmiyyətin direktor-aqronom vəzifəsinin icraçısı Zeynalabdin Nadirov bizimlə söhbətində bildirdi ki, təsərrüfatın fəaliyyətində əsas məqsəd daxili bazarın tələbatına uyğun olaraq müxtəlif növdə yerli meyvə və tərəvəz məhsulları yetişdirmək, bu sahədə istehsalı artırmaqdır. Həmsöhbətimiz dedi ki, hazırda bütün dünyada əhalinin ərzaq tələbatı ildən-ilə artmaqdadır. Ölkəmizdə, eləcə də muxtar respublikamızda bu tendensiya müşahidə olunur. Dövlətimizin həyata keçirdiyi məqsədyönlü tədbirlərin əsasını da o təşkil edir ki, artan tələbat yerli imkanlar hesabına ödənilsin. Nəticədə, həm kənd təsərrüfatı inkişaf etsin, həm də insanlar yeni iş yerləri ilə təmin olunsun, eyni zamanda daxili bazar qorunsun. Daxili bazarı qorumağın ən əlverişli yolu isə, təbii ki, yerli istehsalın həcmini artırmaqdır. Digər tərəfdən, nəzərə alaq ki, uzaq keçmişdən bu günümüzə Naxçıvanın yerli meyvə və tərəvəz məhsullarının dad-tamının sorağı hər tərəfə yayılıb. Bu məhsulların keyfiyyəti digər yerlərdə yetişdirilmiş eyni adda məhsullardan fərqlənir. O zaman bu sahənin inkişafına hər birimiz maraqlı olmalıyıq. Şükürlər olsun ki, indi dövlətimiz tərəfindən də torpaq mülkiyyətçilərinə lazımi dəstək göstərilir. Bir qalır ki, zəhmətə qatlaşasan, qolların çırmayıb işə başlayasan.

Müsahibimizdən təsərrüfatın hazırkı vəziyyətini soruşduq, hansı məhsulların yetişdirildiyini öyrənmək istədik. Zeynalabdin Nadirov bildirdi ki, bu fermer təsərrüfatı 50,1 hektar ərazidə yaradılmışdır. Təsərrüfatın fəaliyyətində əsas məqsəd daxili bazarın tələbatına uyğun olaraq müxtəlif növdə yerli meyvə və tərəvəz məhsulları yetişdirmək, bu sahədə istehsalı artırmaqdır.

Onu da qeyd edək ki, "Orqanik Məhsul Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətində əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə 14 nəfər işlə təmin olunmuşdur.

Bu ilin ötən dövrü ərzində təsərrüfatda 31 hektar ərazidə şum qaldırılıb. 22 hektar sahədə noxud, 0,7 hektar sahədə kartof, 2 hektar sahədə pomidor, 0,5 hektar sahədə bibər, 0,2 hektar sahədə badımcan, 1,5 hektar sahədə lobya, 0,1 hektar sahədə çuğundur əkini aparılmışdır. Bununla yanaşı, 0,5 hektar sahədə üzüm, 1,9 hektar sahədə isə meyvə bağı salınmışdır. Mövcud 1,5 hektar çaytikanı bağında bərpa işləri həyata keçirilmiş, 5 hektar taxıl əkini sahəsində, 3,1 hektar meyvə və 1,5 hektar üzüm bağlarında aqrotexniki qulluq işləri aparılmışdır. Bununla yanaşı, 4 hektar şoranlaşmış ərazidə şum qaldırılmış, sahəyə aqrotexniki qulluq göstərilmiş və həmin ərazi əkin dövriyyəsinə qatılmışdır.

Təsərrüfatda yetişdirilən noxud, kartof, pomidor, bibər, badımcan, lobya, üzüm olmaqla, ümumilikdə, 14,1 ton məhsul yığılmışdır. Əldə edilmiş 10 ton taxılın isə 4 tonu satılmış, 6 tonu payız əkini üçün ayrılmışdır.

Hazırda təsərrüfatın sahələrində növbəti ilin bol məhsulu üçün işlər aparılır. İndiyədək 32 hektar sahədə şum qaldırılmış, bunun 20 hektarında taxıl əkini həyata keçirilmişdir. Yeni sahələrin şumlanması işi davam edir. Təsərrüfatda əkin işlərinin aparılması üçün traktor, toxumsəpən, şırımaçan, kotan, moraaçan, dərmansəpən texnikaları alınmış, bu texnika və aqreqatların saxlanılması üçün 91 kvadratmetr sahədə çardaq qurulmuşdur.

Ümid edirik ki, "Orqanik Məhsul Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyəti yaxın gələcəkdə muxtar respublikamızın nümunəvi fermer təsərrüfatlarından birinə çevriləcək, əhalinin yerli kənd təsərrüfatı məhsulları ilə təminatında mühüm rol oynayacaqdır.

Səbuhi HƏSƏNOV

---

## Naxçıvan şəhəri fasiləsiz istiliklə təchiz olunur

***Naxçıvan şəhərinin, onun qəsəbə və kəndlərinin kompleks inkişafı ilə paralel aparılan istilik təchizatı tədbirlərinin yüksək sürət və keyfiyyətlə həyata keçirilməsi əhəmiyyətli nəticələrin əldə edilməsinə imkan verib.***

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, bu məqsədlə Naxçıvan şəhərində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. 2017-2018-ci illərin qış mövsümünə hazırlıqla əlaqədar bütün qazanxanalara baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz edilib, elektrik və qaz xətləri yoxlanılıb, istismar müddəti başa çatan borular və siyirtmələr yenisi ilə əvəz olunub.

Xətt təsərrüfatında əsaslı və cari təmir işləri də diqqət mərkəzində saxlanılıb, qış ayları ərzində Naxçıvan şəhərinin daha etibarlı istilik sistemi ilə təmin olunmasına möhkəm zəmin yaradılıb.

Əhalinin davamlı olaraq istiliklə təmin edilməsi üçün mərkəzləşdirilmiş qazanxanaların təbii qaz və mazutla, fərdi qazanxanaların isə təbii qaz və dizel yanacağı ilə işləməsi təmin edilib. Yəni qaz təsərrüfatında hər hansı bir qəza baş verərsə, qazanxanalar mazut və dizel yanacağı ilə işləyəcək, istilik sistemində fasilələr yaranmayacaq.

İstilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə, inzibati və ictimai yaşayış binalarının istiliklə etibarlı təmin olunmasına hərtərəfli şərait yaradılıb.

İdarədən aldığımız məlumata görə, artıq bütün obyektlərin istiliklə təminatına start verilib. Hazırda Naxçıvan şəhərində 5 mərkəzləşdirilmiş, 38 fərdi qazanxana vasitəsilə 173 yaşayış binası, eləcə də 7 min 634 mənzil və 30 inzibati bina fasiləsiz olaraq istiliklə təmin edilir.

Onu da qeyd edək ki, son illər yeni inşa olunan binalarla yanaşı, mövcud inzibati və ictimai yaşayış binalarının istilik sisteminin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilir, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fərdi qazanxanalar tikilib istifadəyə verilir. Fərdi qazanxanalardan inzibati və yaşayış binalarınadək olan məsafədə istilik xətləri tunellər vasitəsilə çəkilib. Bu da həmin xətlərin korroziyaya uğramasının qarşısını alır, yaranmış nasazlıqların yerüstü kommunikasiya xətlərinin zədələnmədən qorunmasına və müntəzəm nəzarət olunmasına əlverişli şərait yaradır.

Nail ƏSGƏROV

*Ötən həftə tanınmış amerikalı jurnalist, Paraqvay Milli Konqresinin xarici işlər üzrə xüsusi məsləhətçisi Peter Tase muxtar respublikamıza gəlib. Jurnalist dostumuzu redaksiyamıza dəvət edib, səfərinin məqsədi və təəssüratları ilə tanış olduq.*

Redaksiyamızın qonağı

# Amerikalı araşdırmaçı jurnalist Peter Tase: Naxçıvan dünya mədəniyyətinin mühüm mərkəzidir

*– Sizi Naxçıvanda yenidən xoş gördük. Budəfəki səfərinizin məqsədi haqqında nə deyə bilərsiniz?*

– Bu mənim qədim Nuh yurdu Naxçıvana üçüncü səfərimdir. Xatırlayıram, sonuncu dəfə ötən ilin mayında görüşmüşdük. O vaxt da burada indiki kimi gözəl günəşli günlər var idi. Bu dəfə də səfərimin ikinci günündə bir çox yerlərə baş çəkmək imkanımız oldu. Əsas məqsədim Naxçıvanın dünya əhəmiyyətli abidələri ilə tanış olmaq, bunlar haqqında müxtəlif yazılar hazırlayıb nəşr etdirməkdir. Bilirsiniz, mən artıq iki aydır, ölkənizdəyəm və Azərbaycanda mövcud olan multikulturalizm ənənələri və onun dünya mədəniyyətinə təsiri barədə araşdırmalar aparıram. Azərbaycanın tərkib hissəsi olan Naxçıvanın da bu baxımdan dünya mədəniyyətinə çox güclü töhfələri olduğuna inanıram. Ona görə də bu qədim Azərbaycan torpağını daha yaxından tanımaq üçün bir daha Naxçıvana gəldim.

*– İlk tanışlıqlarınız harada olub?*

– Əvvəlcə Naxçıvan şəhərindəki abidələri yenidən ziyarət edib, daha sonra Qarabağlar türbəsi, burada aparılan bərpa işləri ilə tanış oldum. Bu abidə Azərbaycan memarlığının görkəmli əsərlərindən biridir. Düşünürəm ki, onun bərpası, belə gözəl bir əsərin yenidən dünya mədəniyyətinə qaytarılması, gələcək nəsillərə çatdırılması kimi qlobal bir işin şahidi olduğuma görə çox məmnunam. Əlbəttə, bilirəm ki, belə möhtəşəm tarixi abidələrin bərpası çox zəhmət və diqqət tələb edən işlərdəndir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin belə mühüm layihələrə verdiyi önəm, xüsusi əhəmiyyətə malikdir. Mən dünyanın 50-dən artıq ölkəsində olmuşam. Gördüklərimə əsasən deyə bilərəm ki, əhali sayının abidələrin sayına olan nisbətinə görə Naxçıvan dünyanın ən zəngin yerlərindən biridir. Belə faktlara dünyanın başqa yerlərində çətin rast gəlmək olar. Digər bir maraqlı məqam isə məhz cəmi 26 illik müstəqillik dövründə Azərbaycanda tarixi-mədəni irsin qorunmasına yönəldilmiş bu qədər böyük həcmdə işlərin görülməsidir. Düşünürəm ki, bütün bunlar, o cümlədən demokratik cəmiyyət quruculuğunda ölkənizdə əldə olunmuş nailiyyətlər haqqında çox şeylər yazmaq olar. Müasir dünyada, məsələn, yaxşı tanıdığım Cənubi Amerika ölkələri arasında elələri vardır ki, onlar iki yüz ildən artıq bir dövrdə müstəqil olsalar da, cəmiyyət və dövlət quruculuğunda bu qədər inkişaf yolu keçə bilməyiblər. Yaxud Avropa İttifaqının üzvü olan elə ölkələr vardır ki, onlar arasındakı gömrük-keçid məntəqələri, sadəcə, kiçik bir otaqdan ibarətdir. Naxçıvandakı 8 elektrik stansiyasından 5-i su, biri Günəş Elektrik Stansiyasıdır. Dünyanın bir sıra ölkələrində bunların heç biri yoxdur. Bütün bunlar bu torpaqda yaşayan insanların mədəni həyat tərzindən xəbər verir və gələcəkdə həm də Naxçıvanda dayanıqlı turizmin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən işlərdir.



*– Naxçıvana sonuncu səfərinizlə müqayisədə hansı dəyişikliklər gördünüz?*

– İlk olaraq şəhərdə tikilmiş uca binalar diqqətimi cəlb etdi. Naxçıvan şəhəri sürətlə böyüyüb, genişlənir. Bu, mənim diqqətimdən qaçmadı. Əslində, Naxçıvanda özümü qonaq kimi hiss etmirəm. ABŞ-da yaşadığım Viskonsin ştatının havası da elə buranın iqlimi kimidir. Naxçıvan dağlarla əhatə olunsa da, diqqətimi daha çox cəlb edən ən ucqar yaşayış məntəqələrində də şəhər standartlarına uyğun həyat şəraitinin yaradılmasıdır. Məsələn, dünən Heydərabada getdiyimdə buna şahid oldum. İşğalçı Ermənistanla sərhəddə belə gözəl bir qəsəbənin olması müstəqil Azərbaycanın gücünü göstərir. Naxçıvanın ən ucqar yerlərində də insanların müasir yaşayış standartlarını görmək heyranedicidir.

*– Vətəninizə qayıtdıqdan sonra bunlar haqqında nə yazmağı düşünürsünüz?*

– Artıq dekabrın 1-də Azərbaycandakı araşdırma müddətim bitir. Keçən ikiaylıq dövrdə ölkənizin bir sıra regionlarında oldum. Multikulturalizm və tolerantlığın Azərbaycan modeli üzrə apardığım araşdırmalar zamanı xeyli məlumatlar əldə etdim. Gəldiyim nəticələr haqqında Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi tələbələri qarşısında da çıxışım oldu. Azərbaycandan yola düşdükdən dərhal sonra Argentinanın paytaxtında elmi ictimaiyyət qarşısında Naxçıvan haqqında konfrans keçirəcəyəm. Bundan sonra Birləşmiş Ştatlara qayıtdığımda Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası haqqında məqalələr yazmağı planlaşdırıram. Mənim əməkdaşlıq etdiyim bir neçə jurnal vardır. “Foreign Policy News”, “Euriasia Review Journal” və “Modern Diplomacy Journal” kimi çoxtirajlı nüfuzlu jurnallarda Azərbaycan həqiqətləri haqqında yazılar dərc etdirəcəyəm. İnanıram ki, dünya Azərbaycanı daha yaxından tanıdıqca dostlarınızın da sayı artacaq, daha çox turist bu gözəl ölkəyə səyahətə gələcək.

*– Turizm demişkən, Naxçıvanın turizm potensialını necə qiymətləndirirsiniz?*

– Naxçıvanın turizm ehtiyatları çoxdur. Mənim fikrimcə, buradakı tarixi-mədəni potensial, təbii üsullarla müalicə imkanları və ekoturizm daha yaxşı turizm perspektivləri açır. Gələn il Naxçıvan İslam mədəniyyəti paytaxtı kimi çox mühüm qlobal layihənin mərkəzi olacaq, buraya daha çox sayda turistlər gələcək. Mən isə Argentinadakı turizm şirkətlərinə Azərbaycana səyahət haqqında məlumatlar verəcəyəm. Yəqin ki, gələn ilin yaz aylarında Naxçıvanda argentinalı turistləri də görəcəksiniz. Bu turistlər təmiz ekoloji şəraiti, qeyri-adi təbiəti izləməkdən böyük zövq alırlar. Bütün bunlar Naxçıvanda vardır. Mən də budəfəki səfərimdən dərin təəssürat qazandım. Naxçıvanda keçirdiyim günlərin hər dəqiqəsi mənalı oldu. Bütün bunlara görə minnətdaram.

*– Müsahibə üçün sağ olun!*

**Əli CABBAROV**

# AMEA Naxçıvan Bölməsində kitab müzakirəsi aparılıb



*AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitablar Siyahısı”na daxil edilən “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti” kitabının müzakirəsi keçirilib.*

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli sərəncamın gənc nəslin vətənpərvərlik, tarixi kökə bağlılıq ruhunda tərbiyə edilməsindəki əhəmiyyətindən bəhs edib.

“Əcəmi” Nəşriyyat-Poliqrafia Birliyində nəşr olunan “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti” kitabının məziyyətlərindən danışan alim bildirib ki, bu nəşr xalqımız üçün əhəmiyyət kəsb edən tarixi məqamları əhatə edir. Kitabda tariximizin bütün dövrləri təhlil olunur.

Qeyd olunub ki, nəşrdə Azərbaycan tarixinə dərindən nəzər salınır, tarixi proseslərə, hadisələrə obyektiv qiymət verilir, elmi-nəzəri təhlillər aparılır. Ümummilli lider Heydər Əliyevin müraciətini Azərbaycan intibahına çağıran sənəd kimi dəyərləndirən tarixçi-alim bildirib ki, həmin müraciət gənc nəsillər üçün mühüm tarixdir və bu tarix gələcək nəsillər tərəfindən daim öyrəniləcək, tədqiq olunacaqdır.

Tədbirdə institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev və böyük elmi işçi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov çıxış edərək kitabın bütün azərbaycanlılar üçün əhəmiyyət kəsb edən tarixi, siyasi-ideoloji məqamları əhatə etdiyini vurğulayıblar.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

# Test-sınaq imtahanları keçirilib

*Muxtar respublika ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında test-sınaq imtahanları keçirilmişdir.*

Sınaq imtahanlarında XI sinif şagirdlərinə 5 fənn üzrə 125 sual təqdim olunmuş, sualların cavablandırılmasına 180 dəqiqə vaxt verilmişdir. IX-X sinif şagirdlərinin buraxılış imtahanlarına hazırlıq səviyyəsinin yüksəldilməsi və gələcəkdə imtahanların birinci mərhələsində yüksək nəticələr əldə etmələri üçün sınaq imtahanları yeni formatda keçirilmişdir. IX sinif şagirdlərinə ana dili və riyaziyyat fənlərinin hər birindən 30 olmaqla, ümumilikdə 60 sual, X sinif şagirdlərinə isə ana dili, riyaziyyat və xarici dil fənlərinin hər birindən 30 olmaqla, ümumilikdə, 90 sual təqdim edilmişdir.

Sualları cavablandırmaq üçün IX və X sinif şagirdlərinə 120 dəqiqə vaxt ayrılmışdır. Sınaq imtahanlarında muxtar respublikanın bütün ümumtəhsil məktəbləri şagirdlərinin iştirakı təmin olunmuşdur.



**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

# Çankırı Karatekin Universitetinin nümayəndə heyəti ali təhsil ocağında olub

Naxçıvan Dövlət Universitetində beynəlxalq əlaqələrin inkişaf etdirilməsi və dünya universitetləri ilə əməkdaşlıqların qurulması istiqamətində məqsədyönlü tədbirlər görülür. Bu tədbirlərin davamı kimi Türkiyənin Çankırı Karatekin Universitetindən 20 nəfərdən ibarət nümayəndə heyəti “ERASMUS+” layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının yaranma tarixindən danışıb, universitetin 50 illik yubileyinin dövlət səviyyəsində qeyd olunduğunu diqqətə çatdırıb. Beynəlxalq əlaqələrdən də danışan rektor “ERASMUS+” çərçivəsində müvafiq ixtisaslardan 15 tələbənin bir semestr ərzində Çankırı Karatekin Universitetində təhsil almaq üçün göndərildiyini bildirib.

Universitetlə yaxından tanış olan qonaqlar ixtisaslaşmış bölmələrdə dərs və treninqlər keçiblər. Onlar ali təhsil müəssisəsinin Tarix-filologiya, Beynəlxalq münasibətlər və xarici dillər, Sosial idarəetmə və hüquq, İqtisad, Pedaqoji, Təbiətşünaslıq və kənd təsərrüfatı, Tibb fakültələrində keçilən dərslərdə qardaş ölkənin tədris sahəsindəki təcrübələrini bölüşüblər.

Tədris sahəsində fəaliyyət göstərən heyət müvafiq olaraq Tədris, Media, Kadrlar şöbələrində treninqlər keçiriblər.

Universitetdə mövcud olan media mərkəzi ilə maraqlanan qonaqlar bir həftə ərzində televiziya və radionun iş prinsipi, onlayn videokonfransların keçirilmə qaydaları ilə yaxından tanış olublar.

Mühasibatlıqda sənəd dövriyyəsi ilə maraqlanan qonaqlar Tələbə-məzun şöbəsində universitetdə həyata keçirilən elektron tədris prosesi ilə tanış olublar.

**Səadət ƏLİYEVA**

*Naxçıvan Regional Peşə Tədris Mərkəzində regionun əmək bazarında ciddi tələbat yaranan və unudulmaqda olan peşələr üzrə kurslar təşkil edilməklə bu sahədəki vəzifələrin həllinə ciddi diqqət yetirilir.*

Peşə təhsili

# Gənclərin peşə istiqamətinə cəlbi ilə bağlı tədbirlər davamlı xarakter alıb

İndiyə qədər peşə ixtisasları üzrə müxtəlif kursların təşkil olunduğu Naxçıvan Regional Peşə Tədris Mərkəzində də həmin vəzifələrin həlli istiqamətində xeyli işlər görülmüş, muxtar respublikanın bütün bölgələrindən cəlb olunmuş müdavimlər müxtəlif peşələrə yiyələnmişlər.

Mərkəzdən aldığımız məlumatda bu tədris müəssisəsinin fəaliyyətə başladığı 2009-cu ilin aprel ayından indiyədək burada təşkil edilmiş kursları 3 mindən çox müdavim bitirərək sertifikatlarla təmin olunmuşdur. Ümumilikdə isə həmin ildən bu günə qədər Naxçıvan Regional Peşə Tədris Mərkəzində kompüter istifadəçisi, kabel lehimləyicisi və elektrik montyoru, elektron avadanlıqların təmiri üzrə elektromexanik, bərbər-manikürçü, traktorçu-maşinist, xalçaçı, dərzi, buldozer maşinisti və digər peşə hazırlığı kursları təşkil edilmişdir. Bundan əlavə, televiziya üçün teleaparıcı, kinooperator, televiziya rejissorluğu, “Naxçıvanqaz” İstehsalat Birliyinin işçiləri üçün qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin işçiləri üçün dəmir yolu nəqliyyatında elektrik montyoru peşələri üzrə ixtisasartırma, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müraciətləri nəzərə alınaraq bir sıra kurslar təşkil edilmişdir.

Təhsil ocağında müdavimlərin normal təhsil almaları üçün bütün lazımi şərait yaradılmışdır. Burada təşkil olunan peşələrə uyğun ixtisaslaşdırılmış sinif otaqları vardır. Mərkəzdə kabinələr, emalatxanalar, istirahət və elektron lövhə otaqları fəaliyyət göstərir. Kabinə və emalatxanalar əyani vəsaitlər, elektron lövhə otağı isə sürətli internet və tədris üçün video-materiallarla təmin edilmişdir ki, bu da tədrisin keyfiyyətlə aparılmasında mühüm rol oynayır.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində 44 yerlik yataqxana, camaşırxana, yeməkxana, mətbəx, kitabxana fəaliyyət göstərir. Muxtar respublikanın rayonlarından gəlmiş müdavimlər yataqxanada qeydiyyata alınaraq gündə 3 dəfə yeməklə təmin olunurlar. Kursa cəlb edilənlər arasında Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın Babək, Şərur, Culfa, Şahbuz rayonlarından gələn müdavimlər də üstünlük təşkil edirlər. Müdavimlərin yaş həddi isə 16-55 arasında dəyişir. Bu isə hər yaşda peşələrə yiyələnmək istəyənlərin olduğunu göstərir.

Mərkəzdə peşə hazırlığı istiqamətində gələcəkdə aparılacaq işlərin təkmilləşdirilməsi məqsədilə əmək bazarında müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi üçün rübdə bir dəfə muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlarda sorğular təşkil edilir. Belə sorğuların nəticəsi və işəgötürənların fərdi müraciətləri gələcəkdə regionun əmək bazarına və rəqabətə uyğun peşə hazırlığı üçün tələbatı müəyyən etməyə imkan verir.



Onu da qeyd edək ki, peşə hazırlığı kurslarında tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə muxtar respublikada və ölkəmizin digər regionlarında, o cümlədən xarici ölkələrdə fəaliyyət göstərən mütəxəssislər dəvət olunur. Bacarıqlı peşə sahiblərinin hazırlanmasına və onların peşə yönünə görə işlə təmin olunmalarına göstərilən diqqət mühüm əhəmiyyət kəsb edir.

**Ramiyyə ƏKBƏROVA**

## Rəsm müsabiqəsinin növbəti turu olub

***Şərur Rayon Şahmat Məktəbində "Ulu öndər Heydər Əliyev gənc rəssamların gözü ilə" mövzusunda rəsm müsabiqəsinin üçüncü turu keçirilib.***

Tədbirdə Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Hökumə Məmmədli çıxış edərək bildirib ki, Azərbaycan mədəniyyətinin, o cümlədən təsviri sənətinin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider hakimiyyətdə olduğu bütün dövrlərdə rəssamlığa da böyük diqqət və qayğı göstərib.

Qeyd olunub ki, keçirilən rəsm müsabiqəsi təhsil, mədəniyyət və turizm müəssisələrinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili ilə bağlı 2017-2018-ci tədris ili üçün nəzərdə tutulmuş tədbirlər planına əsasən dahi şəxsiyyətin anadan olmasının 95-ci ildönümünə həsr edilib. Müsabiqə muxtar respublika məktəbləri şagirdlərinin yaradıcılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsi, gənc nəslin mənəvi, bədii və estetik dünyagörüşünün formalaşması, gənclərdə vətənpərvərlik duyğularının daha da gücləndirilməsi məqsədi daşıyır.

Sonra gənc rəssamların çəkdikləri rəsm əsərləri münsiflər heyətinin iştirakı ilə qiymətləndirilib. Şərur rayonu üzrə keçirilən müsabiqənin bu mərhələsində Nisəbəyim Babayeva (Muğancıq-Mehrab kəndi, 9-cu sinif) I, Sinan Həsənov (Sərxanlı kəndi, 10-cu sinif), Çinar Məmmədov (Dəmirçi kəndi, 9-cu sinif) II, Nuray Məmmədova (Aralıq kəndi, 8-ci sinif), Məhəmməd Gözəlov (Dəmirçi kəndi, 11-ci sinif) III yerlərin diplomlarına layiq görülüblər. Qaliblər müsabiqənin növbəti mərhələsində iştirak etmək hüququ qazanıblar.

Qeyd edək ki, Naxçıvan Dövlət Rəsm Qalereyası və muxtar respublikanın rayon təhsil şöbələrinin birgə təşkil etdikləri müsabiqənin bundan əvvəlki mərhələləri Ordubad və Sədərək rayonlarında keçirilib. Oktyabrın 27-də start verilən müsabiqə gələn il mart ayının sonlarında başa çatacaqdır. Müsabiqədə rəsm çəkmək bacarığı olan VI-XI sinif şagirdləri iştirak edirlər. Rayonlar üzrə fərqlənən məktəblilər mart ayında Naxçıvan şəhərində keçiriləcək yekun tədbirdə iştirak edəcəklər. Müsabiqənin qalibləri və fərqlənənlər diplomlarla təltif olunacaqlar.

**Əli RZAYEV**

*Səhiyyə xəbərləri*

## Naxçıvan Dövlət Universitetində profilaktik tibbi müayinələr başa çatıb

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq ali təhsil müəssisələrində və kolleclərdə təhsil alan tələbələr və pedaqoji kollektivlər yeni dərs ilinin ilk kütləvi profilaktik müayinələrinə, dispanserizasiyaya cəlb ediliblər.***

Bu məqsədlə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının əməkdaşlarından ibarət həkim briqadası yaradılıb və iş qrafiki tərtib edilib. Noyabrın 27-də başa çatan kütləvi müayinələrdə bütün fakültələr əhatə olunmaqla, 3 min 156 nəfər iştirak edib. Profilaktik müayinə zamanı ehtiyac olan hallarda yüksəkixtisaslı həkimlər tərəfindən konsultasiya və laborator-diaqnostik müayinələr aparılıb. 170 nevroloji, 195 LOR, 81 stomatoloji, 259 oftalmoloji, 57 dəri-zöhrəvi, 45 terapevtik, 19 cərrahi xəstəliyə meyilli hal müşahidə olunub. Onların daşıyıcıları olan tələbələrin müalicəsi üçün tibbi göstəriş verilib.

Tələbələr arasında ürək-damar, yoluxucu, dəri-zöhrəvi, şəkərli diabet, onkoloji, ginekoloji xəstəliklər barədə səhiyyə maarifi işləri aparılıb. Kütləvi profilaktik müayinələr ilin sonuna kimi digər ali təhsil müəssisələrinin müəllim və tələbələrini də əhatə edəcəkdir.

## Orta tibb işçiləri üçün üçgünlük təlim-treninq keçirilib

***Ucqar dağ və sərhəd kəndlərinin həkim ambulatoriyaları, feldşer-mama məntəqələrində çalışan orta tibb işçiləri tərəfindən kardioloji xəstələrə ilkin tibbi yardım xidmətini daha da yaxşılaşdırmaq üçün Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzində üçgünlük təlim-treninq keçirilib. Tədbir iştirakçıları əvvəlcə mərkəzin fəaliyyəti, maddi-texniki bazası ilə tanış olublar.***

Təlim-treninqlər 20 nəfərlik qruplar üzrə keçirilib. Mərkəzin baş həkimi Alı Əliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, bu gün muxtar respublikada əhaliyə göstərilən kardioloji xidmət yüksək səviyyədədir. Tibb elminin son nailiyyətlərindən səmərəli istifadə olunur. Xəstələrə ambulator və stasionar tibbi xidmət, xüsusən də reanimasiya xidməti təlimata uyğun aparılır. Kardioloji xəstələrin invaziv müalicələri, açıq ürək-damar, protez qapaqların implantasiyası əməliyyatları yerli mütəxəssislər tərəfindən müvəffəqiyyətlə həyata keçirilir.

Qeyd edilib ki, son illər stasionarda ölüm hadisələrinin həmısı kəskin miokard infarktından sonra yaranmış ağır kardiogen şokun və kəskin ürək çatışmazlığının (ürək astmasının, ağciyər ödeminin) hesabına baş vermişdir. Bütün ağırlaşmalar və stasionar ölümlər tibbi şuralarda müzakirə olunub. Əksər hallarda ağırlaşmalara hospitalizasiyanın yubanması, ixtisas və qeyri-ixtisas həkimlər tərəfindən infarktlı xəstələrin ambulator müalicələrinin evlərdə aparılması, rayonlardan, xüsusən uzaq kəndlərdən xəstələrin xəstəxanaya göndərilməsinin yubanması səbəb olur. Bütün bunların aradan qaldırılması məqsədilə muxtar respublika ərazisində çalışan kardioloqların iştirakı ilə seminar keçirilmişdir. "Kəskin koronar sindrom hallarında ilkin tibbi yardım və tibb işçisinin taktikası", "Hipertonik krizlər zamanı ilkin tibbi yardımın təşkili" barədə təlim-treninqlərdə həkimlərə, həkim ambulatoriyalarında, feldşer-mama məntəqələrində çalışan tibb işçilərinə tövsiyələr verilmişdir. Bununla yanaşı, sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması istiqamətində görülən tədbirlərin mütəmadi olaraq həyata keçirilməsi hələ də öz aktuallığını itirməyib.

Həkim kardioloqlardan Alı Əliyev, Süleyman Cəfərov, Cəfər İsmayılov, Ramin Hacıyev və Vəli Musayev tərəfindən həyata keçirilən təlim-treninqdə ürək-damar xəstəliklərinin təcili təxirəsalınmaz yardım tələb edən hipertonik krizlər, ürək astması, ağciyər ödemi, kəskin koronar sindromu hallarında ilkin tibbi yardım tədbirləri barədə məlumat verilib. Xüsusən kəskin koronar sindromu hallarında xəstələrin həyatlarının xilas edilməsi üçün Kardioloji Mərkəzə və ya Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə vaxtında göndərilməsi tövsiyə edilib. Erkən koronar angioqrafiya müayinə və müalicəsinin xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Ordubadda humanitar aksiya

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim briqadası Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbində şagirdləri kompleks tibbi müayinədən keçirib.***

Son illərin quruculuq ünvanlarından olan bu təhsil müəssisəsində hazırda 454 şagird təhsil alır. Onlardan 47 nəfəri məktəbin yataqxanasında yaşayır. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan bu şagirdlər mütəmadi olaraq tibbi müayinələrdən keçirilir, sağlamlıqları mühafizə edilir. Diaqnostika-Müalicə Mərkəzinin həkimləri Aysel İbrahimova, Məhsəti Allahverdiyeva, Xətai Əliyev və Aynur Rzayeva ambulator müayinələr zamanı internat tam orta məktəbinin yataqxanasında yaşayan şagirdləri hematoloji, uroloji, nefroloji, praktoloji, oftalmoloji və digər tibbi müayinələrdən keçiriblər. Xəstəlikləri aşkar olunanlara müalicə və eynəklər yazılıb, həkim məsləhəti verilib. 22 uşaqda əlavə tibbi müayinələrə ehtiyac olduğundan onlar müalicə məqsədilə Diaqnostika-Müalicə Mərkəzinə dəvət ediliblər.

Humanitar aksiya çərçivəsində alınmış meyvə və şirniyyat məhsulları məktəbin bufetinə, ilkin tibbi yardım üçün ləvazimat, dərman və sarğı materialları isə tibb məntəqəsinə təhvil verilib. Hər iki valideynini itirmiş 5 şagird geyim dəsti, gündəlik istehlak məhsulları ilə təmin edilib. Həkim, müəllim və şagirdlər üçün açılmış çay süfrəsində səhiyyə maarifi işi aparılıb.

Məktəbin direktor müavini Mehman Vəlibəyov şagirdlərə göstərilən bu xidməti dövlətimizin gələcəyimiz olan uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi layihələrin uğurlu icrası kimi dəyərləndirərək minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan şəhərindəki Gənclər Mərkəzində keçirilən yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun Naxçıvan Muxtar Respublika birinciliyi başa çatıb.***

## "Nuh yurdu" intellektual oyunu üzrə birinciliyin qalibi müəyyənləşib



İntellektual oyun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, muxtar respublikanın Gənclər və İdman, Təhsil nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

İntellektual oyunda rayon və şəhər birinciliklərində qalib olan 8 komanda iştirak edib. Oyun yarımfinal və final mərhələsindən ibarət olub.

"Lider", "Qeyrət qalası", "Odlar yurdu" və "Nuh yurdu" komandaları finala vəsiqə qazanıblar.

Oyunun yekun nəticəsinə görə, Culfa rayonunun "Odlar yurdu" komandası I, Naxçıvan şəhərinin "Lider" komandası II, Şərur rayonunun "Nuh yurdu" komandası isə III yerə çıxıblar.

Qalib gələn komandalara təşkilatçıların kubok, diplom, fəxri fərman və oxunması zəruri olan kitablardan təqdim edilib.

Qeyd edək ki, qalib komandalar dekabr ayında Qəbələ şəhərində yeniyetmələr arasında keçiriləcək V Azərbaycan çempionatında muxtar respublikanı təmsil edəcəklər.

## İdmançılarımız uğurlu çıxışlarını davam etdirirlər

***Azərbaycan Respublikası Milli Karate Federasiyasının təşkilatçılığı ilə Bakı şəhərində yeniyetmə və gənclər arasında keçirilən 18-ci respublika, böyüklər arasında isə 25-ci respublika çempionatına yekun vurulub.***

Bakı şəhərindəki Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən çempionat 3 gün davam edib. Çempionatda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının "Nəqşicahan" qızlar idman klubunun yetirməsi Səmra Məmmədli də mübarizə aparıb. İdmançımız çempionatı bürünc medalla başa vurub.

Sonda təşkilatçılar tərəfindən qalib idmançımıza diplom və medal təqdim olunub.

Karate-do Federasiyasının digər yetirməsi isə Krım şəhərində keçirilən birincilikdə iştirak edib. 10-11 yaş qrupunda 38 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan Rəşid Süleymanov bütün rəqiblərinə qalib gəlib və birinci yerə layiq görülüb.

## Naxçıvan Muxtar Respublikası üzrə 27 noyabr 2017-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 4857,0 | 4667,0 | 190,0 |
| 2. | Babək rayonu | 7768,0 | 5198,0 | 2570,0 |
| 3. | Ordubad rayonu | 1393,0 | 716,0 | 677,0 |
| 4. | Culfa rayonu | 4795,0 | 3997,0 | 798,0 |
| 5. | Kəngərli rayonu | 3838,0 | 1903,0 | 1935,0 |
| 6. | Şahbuz rayonu | 942,0 | 920,0 | 22,0 |
| 7. | Sədərək rayonu | 1710,0 | 1248,0 | 462,0 |
| 8. | Naxçıvan şəhəri | 871,7 | 687,0 | 184,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **26174,7** | **19336,0** | **6838,7** |

## Kikboksinq üzrə rayon birinciliyi

Ərəfsə kənd tam orta məktəbində Culfa Rayon Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının Culfa rayon bölməsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmələr arasında kikboksinq üzrə rayon birinciliyi keçirilib. Birincilikdə 40 idmançı mübarizə aparıb.



Yarış əsasnaməyə uyğun olaraq 6 çəki dərəcəsində və olimpiya sistemi üzrə keçirilib. Yarışdan öncə rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli və Şərq Döyüş Sənəti Federasiyasının rayon bölməsinin məşqçisi Etibar Qəribov çıxış edərək idmana göstərilən dövlət qayğısından, bu sahədə əldə olunan nailiyyətlərdən və rayonda idmanın kikboksinq növünün inkişafı istiqamətində görülən işlərdən ətraflı söhbət açıblar.

Gərgin mübarizə şəraitində keçən yarışda Cəsur Hacıyev, Nəsimi Hüseynov, Razi Quliyev, Ələkbər Əliyev, Şirxan Hacıyev və Afiq Qoçəliyev birinci yerə layiq görülüblər.

Yekunda qalib və fərqlənən idmançılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Məmmədova Güllü Etibar qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

"Cahan-Teans" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus nizamnamə, reyestrdən çıxarış və 00306962 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 963